**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**RƏŞAD SÜLEYMAN OĞLU KAZIMOV**

# MƏHKƏMƏYƏDƏK VƏ MƏHKƏMƏ MƏRHƏLƏSİNDƏ DAYANDIRILMIŞ CİNAYƏT İŞLƏRININ TƏZƏLƏNMƏSİNİN PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

**5612.01 – "Cinayət prosesi; kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı– 2014**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Cinayət prosesi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **M.Ə. Cəfərquliyev**
Hüquq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **K.N.Səlimov**
Hüquq üzrə elmlər doktoru, professor

**Z.N.Əzimov**
Hüquq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** DİN Polis Akademiyası

Dissertasiya işinin müdafiəsi "26__ " ___09__________ 2014-cu il tarixdə saat __-__ da Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" _________ 2014-cü il tarixdə göndərilmişdir.

**FD.02.103 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası müstəqilliyini yenidən bərpa etdikdən sonra aparılan məhkəmə hüquq islahatları insan hüquq və azadlıqlarının təminatları ilə yanaşı, cinayətkarlığa qarşı mübarizə siyasətinin gücləndirilməsi ilə xarakterizə olunur. Cinayətkarlığa qarşı mübarizənin effektivliyi ilk növbədə, məsuliyyətin labüdlüyü prinsipinin təmin olunmasından keçir. Məsuliyyətin labüdlüyü və ya cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək üçün cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq, həmçinin cinayətləri tezliklə açmaq vacibdir. Cinayətlərin tezliklə açılması təmin olunmasa, məsuliyyətin labüdlüyünün heç bir əhəmiyyəti olmayacaq. Lakin bəzən obyektiv və ya subyektiv səbəblərlə bağlı cinayət mühakimə icraatının davam etdirilməsi, onun vəzifələrini aktiv şəkildə həyata keçirmək mümkün olmur. Belə hallarda cinayət mühakimə icraatının vəzifələri sırasına onun əvvəlki aktiv mərhələsinə qayıtması da əlavə olunur. Bu isə müvafiq mərhələdə prosessual fəaliyyət nisbətən fərqli xarakter alması ilə nəticələnir ki, bu da mahiyyət etibarilə icraatın dayandırılması institutunu təşkil edir.

Faktiki olaraq cinayət mühakimə icraatının davam etdirilməsinin mümkün olmaması prosessual müddətlərin əsassız olaraq itirilməsinə gətirib çıxarır. Həmçinin icraatın davam etdirilməsinin subyektiv səbəblərlə bağlı qeyri-mümkünlüyü cinayət məsuliyyətinə cəlb etmə müddətlərinin axımını da dayandırır.

Bu müddətlərin itirilməməsi və cinayət mühakimə icraatının özünün əvvəlki aktiv prosessual fəaliyyət mərhələsinə qaytarılması üçün məhkəməyədək və məhkəmə mərhələlərində həyata keçirilən cinayət təqibi üzrə icraat dayandırılır, müvafiq prosessual fəaliyyətdən sonra isə təzələnir. Məhz bütün bunlar cinayət-prosessual qanunvericilikdə cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsinin əsasları və prosessual qaydası ilə bağlı ayrıca institut formalaşmışmasına gətirib çıxarmışdır.

Cinayət mühakimə icraatında verilən bu müvəqqəti qeyri-müəyyən fasilə obyektiv səbəblərlə bağlı olduqda belə, onun aradan qalxması barədə məlumatlar vaxtında aşkarlanmalı və icraat əvvəlki qaydada yenidən davam etdirilməlidir. Bu dövrdə prosessual fəaliyyətin tam mənada dayanıb-dayanmaması, hansı hallarda və hansı mötəbər dəlillərlə dayandırılması, dayandırılandan sonra prosessual fəaliyyətin özünəməxsus cəhətləri, cinayət təqibinin dayandırılması və təzələnməsi institutunun tarixi inkişafı, məhkəməyədək və məhkəmə icraatında cinayət təqibinin dayandırılması və

təzələnməsi əsasları, qaydası və prosessual şərtləri ətraflı şəkildə tədqiq olunmalıdır.

Cinayət təqibinin üzrə icraatın həm məhkəməyədək, həm də məhkəmə mərhələsində dayandırılması və təzələnməsinin əsasları, şərtləri və prosessual qaydalarına düzgün əməl edilməsi, eyni zamanda istintaqın və ədalət mühakiməsi vəzifələrinin səmərəli şəkildə yerinə yetirilməsində həm nəzəri, həm də təcrübi baxımından mühüm əhəmiyyət kəsb edən bir institutdur.

Tədqiqat işinin aktuallığı həm də onunla müəyyən edilir ki, burada Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin yeni rəhbər müddəaları – prinsipləri əsasında məhkəməyədək və məhkəmə mərhələsində cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsinin prosessual problemləri tədqiq olunmalı və onların bir çoxunun aradan qaldırılması yolları təklif olunmalıdır. Şəxsiyyətin hüquq və azadlıqlarının yüksək prioritetə malik olduğu müasir dövrdə tədqiq olunan mövzuya müraciət edilməsi problemin ciddiliyinin daha ətraflı və dərindən araşdırılması zərurətindən irəli gəlmişdir.

Mövzunun aktuallığına dəlalət edən digər amil isə, təcrübədə dayandırılmış cinayət işlərinin sayının və qəbul olunmuş qanunsuz dayandırma qərarlarının artma tempidir. Bu isə öz növbəsində həmin işlər üzrə cinayət mühakimə icraatının vəzifələrinə nail olunmasının müvəqqəti olaraq qeyri-mümkünlüyü deməkdir. Təkcə 2009-cu ildə ibtidai araşdırma mərhələsində 4750 cinayət işi dayandırılmışdır. Həmçinin ibtidai araşdırmada dayandırma haqqında qəbul olunmuş qanunsuz qərarların ləğvi barədə statistikasında artma tempinin olması mövzunun təcrübi əhəmiyyətinə dəlalət edir. Belə ki, həmin qərarların sayı müvafiq olaraq 2008-ci ildə 607, 2009-cu ildə 717, 2010-cu ildə 696, 2011-ci ildə 769 və 2012-ci ildə 1213 olmuşdur. Bu fakt cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsi ilə bağlı prosessual-qanunvericiliyin tələblərinin hüquqtətbiqedənlər tərəfindən tam şəkildə əməl olunmadığını göstərir ki, bu da, onun mahiyyətinin nəzəri-metodoloji baxımdan daha dərindən və ətraflı şəkildə tədqiqini zəruriləşdirir.

**Mövzunun işlənmə səviyyəsi.** Məhkəmə və məhkəməyədək icraat mərhələlərində cinayət işlərinin dayandırılması və təzələnməsinin bir çox məsələləri, bir qayda olaraq, cinayət-prosessual fəaliyyətin dayandırılması, xüsusən ibtidai araşdırma və ya ibtidai istintaqın dayandırılması kontekstində nəzərdən keçirilmişdir. Bu baxımdan cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsi barədə S.İ.Viktorskiy,

İ.Y.Foynitskiy və s. kimi inqlabaqədərki rus müəlliflərinin əsərlərində bir-birindən əsaslı şəkildə fərqlənən fikirlər böyük maraq doğurur.

Nəzərdən keçirilən problemin tədqiqinə M.Ə.Cəfərquliyev, C.H.Mövsümov, A.X.Kişiyev, C.İ.Süleymanov kimi mötəbər milli müəlliflər və xarici müəlliflərdən isə V.M.Bıkov, M.S.Yeqorova, S.Q.Zakirova, M.Y.Klyukova, M.V.Korolyev, A.V.Koçetova və s. xüsusi diqqət yetirmişlər.

Yuxarıda qeyd etdiyimiz milli müəlliflər bu məsələni yalnız dərslik, məqalə və ya digər daha ümumi mövzuların müəyyən hissəsi kimi nəzərdən keçirmişlər. Bu mövzuda milli hüquq ədəbiyyatında ayrıca tədqiqat əsəri yoxdur. Bunun əksinə olaraq xarici hüquq ədəbiyyatında, xüsusilə Rusiya cinayət prosesində ibtidai araşdırmanın, ibtidai istintaqın, həmçinin məhkəmədə icraatın dayandırılması probleminə xüsusi diqqət yetirilmişdir. Bu mövzuda X.J.Kenjayev "İbtidai istintaqın dayandırılmasının aktual problemləri" 1995-ci ildə, M.S.Yeqorova "Cinayət işi üzrə icraatın dayandırılması institutu və onun normalarının realizəsi zamanı cinayət prosesi iştirakçılarının hüquqlarının və qanuni maraqlarının təminatı" 2003-cü ildə, 2004-cü ildə A.M.Papov "İbtidai istintaqın dayandırılmasının əsasları və şərtlərinin təkmilləşdirilməsi problemləri", Y.K.Çerkasova "Cinayət-prosessual fəaliyyətin dayandırılması və təzələnməsinin hüquqi tənzimlənməsi", E.F.Zakirova "Şübhəli və ya təqsirləndirilən şəxsin istintaqdan gizlənməsi və ya digər səbəbdən yeri müəyyən olunmadıqda ibtidai istintaqın dayandırılması", 2006-cı ildə V.V.Ryabçikov "İbtidai araşdırmanın dayandırılması və təzələnməsi", A.V.Koçetova "Cinayət işi üzrə icraatın dayandırılması institutunun aktual məsələləri", A.A.Senkov "Məhkəmə baxışının təxirə salınması və dayandırılması məhkəmə baxışının ümumi şərti kimi" və s. kimi ayrıca namizədlik dissertasiyaları yazılmışdır.

Qeyd olunan xarici müəlliflərin tədqiqatları cinayət prosesi elminin inkişafına əsaslı və mühüm tövhələr vermişdir. Bununla yanaşı qeyd etmək lazımdır ki, həmin əsərlərdə, bir qayda olaraq, cinayət təqibi üzrə icraatın müxtəlif mərhələlərdə, əsasən ya məhkəməyədək, ya da məhkəmə mərhələsində dayandırılması və təzələnməsinin ayrı-ayrı məsələləri araşdırılmış, məsələ milli qanunvericiliyin ümumi müddəaları baxımdan kompleks olaraq tədqiq olunmamışdır. Bu tədqiqatların məzmunun öyrənilməsi göstərir ki, problemə ümumnəzəri deyil, daha çox baxılan mərhələlərin aspektindən və milli qanunvericiliyə əsaslanmaqla yanaşılmış, problemin nəzəri-konseptual əsasları diqqət mərkəzindən kənarda qalmış, həmçinin toxunulan bir çox nəzəri və təcrübi məsələlər irəli sürülən təklif və tövsiyələrin əsaslandırılması zəif olduğu üçün hələ də öz həllini

tapmamış, bəzi müəlliflərin təklif etdikləri həll yolları isə ümumiyyətlə cinayət mühakimə icraatının təyinatına uyğun deyildir.

Bu mövzuda milli cinayət-prosessual hüquq ədəbiyyatında müstəqil monoqrafik tədqiqat əsəri yoxdur. Bu əsər məhkəməyədək və məhkəmə mərhələsində dayandırılmış cinayət işlərinin təzələnməsinin prosessual problemləri və onların həlli yollarına həsr olunmuş müstəqil monoqrafik xarakterli tədqiqat əsəridir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti qismində cinayət mühakimə icraatında məhkəməyədək və məhkəmə mərhələlərində cinayət işlərinin dayandırılması və təzələnməsi problemləri çıxış edir.

Tədqiqatın predmetinə araşdırılan problemə həsr edilmiş ümumi nəzəri və xüsusi cinayət-prosessual hüquq ədəbiyyatı, Azərbaycan Respublikasının və bəzi xarici dövlətlərin cinayət-prosessual qanunvericiliyi və rəsmi statistik məlumatlar daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədini cinayət-prosessual fəaliyyətin məhkəməyədək və məhkəmə mərhələsində dayandırılması və təzələnməsinin hüquqi tənzimlənməsi problemlərini ortaya çıxarmaq və onların həlli yollarını təklif etmək, bununla bağlı milli qanunvericiliyin təkmilləşdirilməsi ilə barədə təkliflər hazırlamaq və təcrübi tövsiyyələr hazırlamaq təşkil edir. Qarşıya qoyulan məqsədə nail olunması istiqamətində aşağıdakı **vəzifələr** müəyyən olunmuşdur:

- cinayət-prosessual fəaliyyətin dayandırılması və təzələnməsinin mahiyyətini müəyyən etmək və ona müəllif anlayışı vermək;
- cinayət işi üzrə icraatın dayandırılması və təzələnməsini tənzimləyən hüquq normalarının tarixi inkişafını və hazırki vəziyyətini nəzərdən keçirmək;
- cinayət işi üzrə icraatın dayandırılması və təzələnməsi əsasları və şərtlərinin hazırki sistemini analiz etmək və onun optimal şəklə salınması üçün yeni yollar təklif etmək;
- cinayət-prosessual fəaliyyətin dayandırılması və təzələnməsinin prosessual qaydasının tədqiqi və bu sahədə qanunvericiliyin və hüquq tətbiqi təcrübəsinin təkmilləşdirilməsi üçün elmi əsaslandırılmış təklifləri hazırlamaq;
- məhkəməyədək və məhkəmə mərhələsində icraatın dayandırılması və təzələnməsinin özünəməxsus cəhətlərini müəyyənləşdirmək.

**Tədqiqatın metodoloji** əsasını dialektik fəlsəfənin əsas müddəaları təşkil edir. Tədqiqat aparılarkən müqayisəli tədqiqat, məntiqi-idrak, formal-məntiqi analiz, müqayisəli-hüquqi, tarixi yanaşma, sistemli-struktur və elmi idrakın digər metodlarından geniş istifadə edilmişdir.

**Tədqiqatın normativ əsasları.** Azərbaycan Respublikasının Konstitusiyası, Cinayət-Prosessual Məcəlləsi, Cinayət Məcəlləsi, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” qanunu və digər qanunları, Azərbaycan Respublikası Baş Prokurorunun qərarları, eləcə də, bir sıra xarici dövlətlərin normativ hüquqi aktları tədqiqatın normativ əsası kimi çıxış edir.

**Tədqiqatın empirik əsasları.** İşin yazılmasında cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsinə dair istintaq-məhkəmə təcrübəsi öyrənilmiş, müvafiq materiallarından istifadə edilmişdir.

**Tədqiqatın nəzəri əsasları.** Dissertasiya işinin nəzəri bazasını milli və xarici tədqiqatçıların əsərləri təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi** onunla şərtlənir ki, o, 2000-ci ildə Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsi üzrə cinayət mühakimə icraatında məhkəməyədək və məhkəmə mərhələsində cinayət işlərinin dayandırılması və təzələnməsinin əsaslarına və prosessual qaydasına həsr edilmiş ilk kompleks xarakterli tədqiqat işidir.

**Tədqiqatın elmi yeniliyini özündə ehtiva edən aşağıdakı yeni elmi müddəalar müdafiəyə çıxarılmışdır:**

1. Cinayət təqibi üzrə icraatının dayandırılması və təzələnməsi dedikdə, qanunla nəzərdə tutulmuş hallarda cinayət-prosessual fəaliyyətin passiv mərhələyə keçməsi və prosessual müddətlərin axımının dayanması ilə nəticələnən, bu barədə qərarın qəbulu ilə başlayan müvafiq əsaslar aradan qalxdığı halda təzələmə qərarı ilə başa çatan cinayət-prosessual hüququn müstəqil institutu başa düşülür.

2. Cinayət təqibi üzrə icraatının dayandırılması və təzələnməsi hüquq institutu cinayət təqibi üzrə icraatının dayandırılması və təzələnməsi əsasları, şərtləri və prosessual qaydasını, dayandırılmış icraat üzrə prosessual fəaliyyəti tənzimləyən normaların məcmusundan ibarətdir.

3. Cinayət təqibi üzrə icraatın dayandırılmasının 1864-cü il çar Rusiyası CMİN-dəki əsaslarını analiz edərkən belə bir müddəa irəli sürmək olar ki, 1864-cü CMİN-də cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsi ilə bağlı məsələlər kifayət qədər tənzimlənməmiş olsa belə, orada icraatın dayandırılmasının “hüquqi əsası” kimi göstərilən preyudisial və ya aidiyyətlə bağlı müddəalardan AR CPM-də bu hissədə açıq qalan məsələlərin tənzimlənməsi zamanı istifadə oluna bilər.

4. Cinayət-prosessual fəaliyyətin funksional təhlili əsasında təqsirsizlik prezumpsiyasının tələblərini nəzərə alaraq AR CPM-in 53.1.1-ci maddəsinin aşağıdakı məzmunda verilməsini təklif edirik.

*"53.1.1. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin konkret şəxs tərəfindən törədilməsinə dair kifayət qədər sübutlar olmadıqda;".*

5. İbtidai istintaqın təzələnməsi qərarının həm cinayət hüquqi və cinayət-prosessual hüquq baxımından, həm də AR CPM-in 279.4-cü maddədəsində göstərilən təqsirləndirilən şəxs, zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdehin hüquq və mənafelərinin təmini baxımdan xüsusi əhəmiyyətini nəzərə alaraq, onun prosessual forması AR CPM-in 277.2-ci maddəsində cinayət işi üzrə icraatın dayandırılması barədə qərarda olduğu kimi tənzimlənməsi məqsədəuyğundur.

6. AR CPM-in 53.1.2-ci maddəsindəki "olduğu yer" ifadəsi təqsirləndirilən şəxsin AR CPM-in 7.0.34-cü maddədə və ya "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" AR Qanununun 2-ci maddəsində göstərilən yerlərdə olmaması demək deyildir. Ona görə də, CPM-in 53.1.2-ci maddəsini bu baxımından şərh etmək düzgün yanaşma deyildir. Cinayət mühakimə icraatında təqsirləndirilən şəxsin olduğu və ya yaşayış yerindən asılı olmayaraq onun faktiki olduğu yerinin müəyyən olub-olmaması icraatın dayandırılması üçün əhəmiyyət daşıyır. Buna görə də, həmin maddənin aşağıdakı məzmunda verilməsini təklif edirik: "53.1.2. *Təqsirləndirilən şəxsin faktiki* olduğu yer müəyyən olunmadıqda;".

7. AR CPM-in 53.1.4-cü maddəsindəki təqsirləndirilən şəxsin cinayət prosesində iştirakı müvəqqəti mümkün olmamasının obyektiv səbəblərinin dairəsi isə açıq saxlanmalıdır ki, təcrübədə olan hər hansı bir obyektiv səbəb müəyyən edildikdə ibtidai istintaqı dayandırmaq mümkün olsun.

8. İbtidai istintaqın təzələnməsinin faktiki əsaslarından biri təqsirləndirilən şəxsin iştirakı olmadan aparılması mümkün olan prosessual hərəkətlərin yerinə yetirilməsi zərurətidir. Təqsirləndirilən şəxsin iştirakı olmadan aparılması mümkün olan prosessual hərəkətlərin yerinə yetirilməsi zərurəti olduqda icraatın təzələnməsi zamanı iş üzrə icraatın dayandırılması üçün əsas olan hallar hələ aradan qalxmamış olur, lakin prosessual hərəkətlərin icrası qaydasında yoxlanılması vacib olan *yeni məlumatlar* aşkara çıxır. İş üzrə zəruri istintaq və digər prosessual hərəkətlər nəticəsində icraatın dayandırılması üçün əsas olan hallar aradan qalxmazsa, iş üzrə icraat müstəntiqin əsaslandırılmış qərarı ilə yenidən dayandırılmalıdır. Belə yeni məlumatlar həm dayandırmanın əsaslarının aradan qalxması, həm də iş üzrə sübut materialları barədə ola bilər. Yəni müvafiq prosessual hərəkətlər dayandırmanın əsaslarının aradan qalxması və ya cinayət işi üzrə yeni sübuti əhəmiyyətli məlumat, əşya və sənədlərin əldə olunması zərurəti ilə bağlı həyata keçirilə bilər. Ona görə də, belə

*zəruri olan istintaq hərəkətləri* dedikdə, cinayət işinin təqsirləndirilən şəxsin müəyyən edilməməsi ilə əlaqədar olaraq dayandırıldığı halda sübutetmə predmetinə daxil olan ayrı-ayrı halların müəyyən edilməsinə yönəlmiş istintaq hərəkətləri; təqsirləndirilən şəxsin olduğu yerin müəyyən olunmaması və ağır xəstəliyi ilə əlaqədar dayandırıldığı halda sübutetmə predmetinə daxil olan ayrı-ayrı halların müəyyən edilməsinə və axtarış məqsədinə yönəlmiş istintaq hərəkətləri nəzərdə tutulur.

9. Məhkəmə baxışında icraatın dayandırılması və təzələnməsi məsələləri mövcud çatışmazlıqların aradan qaldırılması üçün qanunvericiliyə dəyişikliklər edilməlidir. Bu məqsədlə təklif edirik:

319.2. Təqsirləndirilən şəxs məhkəmədən gizləndikdə, faktiki olduğu yer müəyyən olunmadıqda, ağır xəstəliyə tutulduğuna görə məhkəmə iclasına gəlməsi qeyri-mümkün olduqda, insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı məhkəmə tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edildikdə, məhkəmə qərarlarının icra edilməməsi ilə əlaqədar cinayət təqibi zamanı mülki-prosessual qanunvericiliyə uyğun olaraq qərarın icrası kassasiya instansiyası məhkəməsi tərəfindən dayandırıldıqda məhkəmə cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatı dayandırır. Digər təqsirləndirilən şəxslər barəsində isə məhkəmə baxışını mümkün olduqda davam etdirir.

319.3. Məhkəmə məhkəmədən gizlənən təqsirləndirilən şəxsin axtarışını elan etmək və bu məsələ üzrə qəbul etdiyi qərarı icrası üçün onu aidiyyəti üzrə ibtidai araşdırma orqanına və bu qərarın icrasına nəzarətin həyata keçirilməsi üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərməlidir.

319.4. İcraatı dayandırılmış cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmə hərəkətlərinin həyata keçirilməsinə yol verilmir.

319.5. İcraatın dayandırılmasına əsas verən hallar aradan qalxdıqda və ya təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə baxışında məhkəmə hərəkətlərinin həyata keçirilməsi zərurəti yarandıqda məhkəmə öz təşəbbüsü ilə və ya tərəflərin vəsatəti əsasında icraatın təzələnməsi barədə qərar qəbul edə bilər. İcraatın təzələnməsi barədə qərar sənəd şəklində tərtib olunur və bu barədə təqsirləndirilən şəxs, onun müdafiəçisi, zərər çəkmiş şəxs, onun nümayəndəsi, mülki iddiaçı, mülki cavabdeh və ya onların nümayəndələrinə məlumat verilir.

**Tədqiqatın təcrübi və nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, nəzəri müddəaların araşdırılması və təcrübi materialların təhlili əsasında hüquq tətbiqi təcrübəsi, habelə Azərbaycan Respublikası istintaq orqanları və məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsinə kömək edəcək səmərəli nəticələr əldə edilmişdir. Tədqiqat işi, həmçinin, sonrakı elmi araşdırmalar məqsədilə, müxtəlif təhsil müəssisələrinin hüquq fakültələrində "Cinayət prosesi" fənninin müvafiq bölməsi üzrə tədris olunması, habelə hüquq-mühafizə orqanları işçilərinin ixtisasartırması üçün də istifadə oluna bilər. Dissertasiyada irəli sürülən qanunvericilik təkliflərindən qanun yaradıcılıq prosesində istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiyanın əsas müddəa və nəticələri müəllif tərəfindən nəşr etdirilmiş elmi məqalələrdə, beynəlxalq və milli səviyyəli konfranslarda edilmiş çıxışlarda və BDU-nun "Cinayət prosesi" kafedrasının əməkdaşları qarşısında edilmiş məruzələrdə öz əksini tapmışdır.

**Tədqiqat işinin quruluşu** girişdən, səkkiz yarımfəsili əhatə edən üç fəsildən, nəticədən, istifadə edilmiş ədəbiyyat siyahısından və işə edilmiş əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş hissəsində** tədqiqat mövzusunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyən edilmiş, metodoloji və nəzəri əsasları, elmi yeniliyi və müdafiəyə çıxarılan əsas müddəalar, təcrübi və nəzəri əhəmiyyəti şərh olunmuş, aprobasiyası və strukturu barədə məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Cinayət təqibi üzrə icraatin dayandırılması və təzələnməsinin anlayışı, mahiyyəti və tarixi inkişafı"** adlanır və iki paraqrafdan ibarətdir.

**"Cinayət təqibi üzrə icraatının dayandırılması və təzələnməsinin anlayışı və mahiyyəti"** adlanan birinci paraqrafda müəllif cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsinin mahiyyətindən çıxış edərək elmi ədəbiyyatda dayandırma və təzələmənin anlayışı ilə bağlı mövcud fikirləri ümumiləşdirmiş, onlara tənqidi yanaşaraq məsələ ilə bağlı müəllif anlayışı irəli sürmüşdür. Cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsinin müstəqil hüquq institutu və ya cinayət prosesinin mərhələsi olması kimi çoxsaylı mübahisəli məsələlərə münasibət bildirmiş, bu

anlayışı eynicinsli münasibətləri tənzimləyən normaların məcmusu olduğu müddəasından çıxış etmişdir.

Müəllif elmi ədəbiyyatda dayandırma və təzələmə institutunun necə adlandırılması ilə bağlı belə bir mövqeyi müdafiə edir ki, terminoloji baxımdan dayandırma institutu barədə danışarkən onun cinayət təqibi üzrə həyata keçirilməsindən, yəni *"cinayət təqibi üzrə icraatın dayandırılması"* terminindən və ya onun cinayət prosesinin hansısa mərhələsində həyata keçirilməsində danışmaq məsələnin mahiyyətini daha düzgün ifadə etmək olardı. Bu baxımdan bəzi istisnalarla AR CPM-də uğurlu şəkildə həll olunduğunu müdafiə edir. Belə ki, CPM-in 53-cü maddəsinin adında ümumilikdə həm məhkəmə, həm də məhkəməyədək icraat mərhələsində "cinayət təqibi üzrə icraatın dayandırılması" əsasları ifadə olunmuşdur. Lakin qanunvericilik ibtidai araşdırma mərhələsində məhkəməyədək sadələşdirilmiş icraat formasında həyata keçirilən cinayət-prosessual fəaliyyətdə icraatın dayandırılmasına heç bir zərurət olmaması (yeri gəlmişkən CPM-in "Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat" adlanan 39-cu fəslində, 293-297-ci maddələrdə bu növ icraatın dayandırılması ehtimalından söhbət belə getmir, yəni həmin fəsildə icraatın dayandırılması ilə bağlı heç bir qeyd yoxdur və məntiqi olaraq məhkəməyədək icraat mərhələsində bu növ fəaliyyətin dayandırılmasından danışmaq düzgün deyildir. Bunun əksi sadələşdirilmiş icraatın mahiyyətinə də, zidd olmuş olardı.) və xüsusi ittiham qaydasında şikayət üzrə icraatın isə məhkəmə mərhələsinə aid olduğu fikrinə əsaslanaraq bu mərhələdə yalnız "cinayət işi üzrə icraatın dayandırılması"-ından bəhs edir. Lakin qanunvericilik bu yanaşmadakı ardıcıllığını AR CPM-in 304-cü maddəsində pozaraq məhkəmə mərhələsindəki dayandırma barədə cinayət təqibinin həyata keçirildiyi hər üç fəaliyyət formasında icraatın dayandırılmasını tənzimləyir ki, bu da maddənin adında öz əksini tapmışdır. Belə ki, həmin maddə "cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması" adlandırılmışdır. Mahiyyət etibarilə bu yanaşma özlüyündə onu əks etdirir ki, qanunvericilik məhkəməyədək mərhələdə sadələşdirilimiş icraat şəklində həyata keçirilən cinayət təqibi üzrə icraatın dayandırılmasını qəbul etməsə də, məhkəmə mərhələsində haqlı olaraq belə bir məsələni tənzimetmə predmetinə daxil etmişdir. Burada müəllif cinayət təqibi üzrə dayandırmanı prosessual fəaliyyətin tamamilə dayanması kimi qəbul etmir və bu barədə C.İ.Süleymanovun fikirlərini bölüşür.

Müəllif dayandırma və təzələməyə anlayış verərkən belə bir fikirdən çıxış edir ki, dayandırma “prosessual hərəkətlər və qərarlardan ibarət olan *prosessual fəaliyyətdə yaranan fasilə*” kimi qəbul oluna bilməz. Belə bir fasilə istintaq hərəkətlərinin həyata keçirilməsində yaransa da (hərçənd ki, məhkəmə mərhələsində belə bir qadağa ümumiyyətlə yoxdur), prosessual qanunvericilik fərziyyələr irəli sürmək, onları yoxlamaq, göstərişlər vermək, sorğular göndərmək, izahat tələb etməyi və s. digər prosessual hərəkətlərin həyata keçirilməsini qadağan etmir. Həmçinin bəzi ölkələrin cinayət-prosessual qanunvericiliyində istintaq hərəkətlərinin dayandırılmış icraat üzrə qadağan olunmadığına istinadən belə bir müddəa irəli sürür ki, dayandırma və təzələməyə verilən anlayış nəzəri-konseptual baxımdan müvafiq tələblərə tam şəkildə cavab verməlidir. Müvafiq tələblərə cavab verən aşağıdakı anlayışı təklif edir:

Cinayət təqibi üzrə icraatının dayandırılması və təzələnməsi dedikdə, qanunla nəzərdə tutulmuş hallarda cinayət-prosessual fəaliyyətin passiv mərhələyə keçməsi və prosessual müddətlərin axımının dayanması ilə nəticələnən, bu barədə qərarın qəbulu ilə başlayan müvafiq əsaslar aradan qalxdığı halda təzələmə qərarı ilə başa çatan cinayət-prosessual hüququn müstəqil institutu başa düşülür.

Cinayət təqibi üzrə icraatının dayandırılması və təzələnməsi institutu cinayət təqibi üzrə icraatının dayandırılması və təzələnməsi əsasları, şərtləri və prosessual qaydasını, dayandırılmış icraat üzrə prosessual fəaliyyəti tənzimləyən normaların məcmusundan ibarətdir.

İkinci paraqraf **“Azərbaycan cinayət prosesində cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsinin genezis məsələləri”** adlanır. Bu paraqrafda müəllif Azərbaycan cinayət prosesinin tarixi tipinin formalaşması tarixini nəzərə alaraq bu institutun genezis məsələlərini 1864-cü il çar Rusiyasının qəbul olunmuş CMİN-nin təhlilindən başlayaraq müasir dövrədək bu hüquq institutunun məhkəməyədək və məhkəmə mərhələlərində inkişafını əhatəli şəkildə araşdırmışdır.

Məlumdur ki, çar Rusiyasının işğalı altında olan ölkələrin hüquq sistemlərinin formalaşmasına Rusiyada mövcud olan roman-german hüquq sistemi müəyyənedici təsir göstərmişdir. Çar Rusiyasında roman-german hüquq sisteminin formalaşması məhz XIX əsrin ortalarında aparılan məhkəmə-hüquq islahatlarından başlamışdır. Sovet dönəmində də, bu hüquq sisteminin əlamət və təzahürləri varislik əsasında saxlanıldı. Azərbaycan ərazisinin tarixən Rusiyanın təsiri altında olmasını və hüquq sistemimizin eyni yarımtipə aid olmasını nəzərə alan müəllif cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsi institutunun təhlilinə 1864-cü il

Cinayət Mühakimə İcraatı Nizamnaməsindən başlamışdır. Müəllif belə bir fikri qəti olaraq müdafiə edir ki, tarixi təhlilə 1864-cü il CMİN-dən başlanmasının  əsas səbəbi Azərbaycan cinayət-prosessual hüquq elmində dayandırma və təzələməyə aid ayrı-ayrı müasir elementləri məhz bu dövrdən yaranmağa başlamış, daha doğrusu, ümumilikdə cinayət-prosessual hüququn müasir postulatları məhz 1864-cü il Cinayət Mühakimə İcraatı nizamnaməsi ilə hüquqa gətirilməsidir.

İlk növbədə 1864-cü il CMİN-də ibtidai istintaqın dayandırılması əsaslarını təhlil edən müəllif ədəbiyyatda bu əsasların sayı ilə bağlı mövcud olan fikir ayrılıqları ilə əlaqəli belə bir müddəanı müdafiə edir ki, bu aktda dayandırmanın əsaslarının sayı faktiki və hüquqi növlərə ayrılmaqla beşdir. Müəllif bu aktda dayandırma və təzələmə institutu ilə bağlı normaların təhlili ilə belə bir fikri müdafiə edir ki, 1864-cü CMİN-də cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsi ilə bağlı məsələlər kifayət qədər tənzimlənməmiş olsa da, cinayət təqibi üzrə icraatın dayandırılmasının əsasları sırasında müasir dövrdə hüquqi tənzimetmə predmetinə daxil olunmayan yuxarıda dayandırmanın "hüquqi əsası" kimi göstərilən preyudisial və ya aidiyyətlə bağlı olan məsələnin əks olunmasını müsbət və təqdirəlayiq bir hal kimi qeyd edilməli və AR CPM-də bu məsələ ilə bağlı açıq qalan bir çox məsələlərin həlli zamanı 1864-cü il CMİN-nin müvafiq maddələrindən istifadə oluna bilər.

1923-cü ildə Azərbaycanın ilk Cinayət-Prosessual Məcəlləsi olan Cinayət Üsuli-Mühakimə Məcəlləsində məhkəməyədək mərhələdə icraatın dayandırılması ilə bağlı müddəalar iki fəsildə "Müqəssirin ruhi əhvalının təyini" adlanan XVI və "İbtidai istintaqın qurtarması" olan XVII fəsillərində tənzimlənirdi. Bu məcəllənin dayandırma və təzələmə institutu ilə bağlı müddəalarının təhlili əsasında müəllif belə bir nəticəyə gəlir ki, qanunvericilik müvafiq aktda icraatın dayandırılması və təzələnməsinin hüquqi tənzimlənməsindəki çatışmazlıqlardan əlavə icraata xitam vermə ilə dayandırma anlayışları bir-birindən tam olaraq fərqləndirilmirdi. Ibtidai istintaqın dayandırılması və təzələnməsinin hüquqi tənzimlənməsi ilə bağlı 1923-cü il ASSR CPM-i 1864-cü il CMİN-i ilə müqayisə etdikdə sonuncunun məsələ ilə bağlı bir çox məqamlarda daha effektiv hüquqi tənzimetmə mexanizmlərini nəzərdə tutduğu və daha əhatəli olduğu nəticəsinə gəlinmişdir. Müəllif bunun əsas səbəbini yeni yaranan sosialist dövlətində hakimiyyət orqanları və idarəçilik sisteminin tam olaraq formalaşmaması ilə əlaqələndirir.

Ibtidai istintaqın dayandırılması və təzələnməsi ilə bağlı məsələlərdə 1961-ci il ASSR CPM-ni 1960-cı il RSFSR CPM-i ilə müqayisədə nəzəri

baxımdan daha uğurlu olduğunu müdafiə edən müəllif bildirir ki, ibtidai istintaqın dayandırılması və xitam verilməsinin eyni fəsildə yerləşdirilməsi mahiyyət etibarilə bu institutların oxşarlığı təəssüratı yaradır və dayandırma və təzələmənin hüquqi əhəmiyyətini azalda bilər. 1961-ci il ASSR CMP-ində isə ibtidai istintaqın dayandırılması ayrıca fəsildə verilirdi. Müəllif 1 sentyabr 2000-ci ildən qüvvədə olan AR CPM-ində ibtidai istintaqın dayandırılması və xitamının eyni fəsildə, 37-ci fəsildə verilməsini düzgün hesab etmir, onların ayrı-ayrı fəsillərdə yerləşdirilməsini zəruri hesab edir.

Daha sonra məhkəmə mərhələsində icraatın dayandırılması və təzələnməsi məsələlərini eyni yanaşma əsasında müvafiq dövrlərdə təhlilini verməklə məsələləri təhlil edir. 1864-cü il CMİN-də məhkəmə mərhələsində dayandırma əlavə məlumatların toplanması üçün dayandırılırdı ki, bu da, müasir anlamda icraatın dayandırılması deyil, təxirə salınması kimi qəbul olunur. Məhkəmə mərhələsində icraat ümumi əsaslarla, əyni ibtidai istintaq zamanı dayandırmanın əsaslardan biri ilə dayandırılırdı və belə bir qərar prokurorun təklifi ilə məhkəmənin qərarı əsasında realizə olunurdu. 1923-cü il ASŞC Cinayət Üsuli-mühakimə məcəlləsində müasir anlamda başa düşülən məhkəmə mərhələsində cinayət təqibi üzrə icraatın dayandırılmasına dair müddəalar yox idi. Məhkəmədə yalnız işin dinlənilməsinin dayandırılmasından söhbət açılırdı.

1961-ci il ASSR CPM-ində məhkəmə mərhələsində, həm məhkəməyə vermə, həm də məhkəmə baxışında icraatın dayandırılması əsasları nəzərdə tutulurdu. Qanun belə əsaslara müttəhimin yerinin məlum olmaması, qaçıb gizlənməsi və ruhi xəstə və başqa ağır xəstəliyə tutulduğu halda icraat dayandırılırdı. Müəllif Azərbaycan cinayət prosesində cinayət təqibi üzrə icraatın dayandırılması və təzələnməsinin genezis məsələlərini araşdıraraq belə bir müddəanı irəli sürür ki, cinayət təqibi üzrə icraatın dayandırılmasının tarixini həmişə irəliyə doğru inkişaf edən kimi xarakterizə etmək mümkün deyildir.

**“Məhkəməyədək icraatda cinayət işlərinin dayandırılması və təzələnməsinin prosessual problemləri və onların həlli yolları”** adlanan ikinci fəsil dörd paraqrafdan ibarətdir.

**“Məhkəməyədək icraatda cinayət işinin dayandırılması əsasları və onun həyata keçirilməsi şərtləri”** adlanan birinci paraqrafda məhkəməyədək icraatın dayandırılması və təzələnməsi kimi ibtidai istintaqın dayandırılmasının ayrı-ayrı əsasları və bu əsasların həyata keçirilməsinin prosessual şərtləri, onların qanunvericilikdə ifadə olunmuş

məzmununda mövcud olan çatışmazlıqlar göstərilir, onların təkmilləşdirilməsi üçün konkret təkliflər irəli sürülür.

Müəllif prosessual hüquq ədəbiyyatında belə bir fikirlə razılaşmır ki, dayandırmanın əsasları da, ibtidai istintaqın dayandırılması şərtlərindən biridir. Dayandırmanın əsasları cinayət işinin icraatının prosessual rejimini dəyişən, prosessual fəaliyyətin başqa rejimdə həyata keçirilməsinə səbəb olan qanunda əks olunmuş faktiki hallar olduğu halda, dayandırmanın şərtləri isə müvafiq əsasların olub-olmaması, bu əsaslar olduqda onun həyata keçirilməsinin qanuni və əsaslı olmasını təmin edən tələblərdir. Ona görə də, onları bir-birinə müncər etmək olmaz.

İbtidai istintaqın dayandırılmasının ümumi və xüsusi şərtlərə bölgüsünü əsas götürməklə ibtidai istintaqın dayandırılmasının ümumi şərtləri dedikdə, CPM-in 53.1-ci maddəsində ibtidai istintaqın dayandırılması üçün əsas ola bilən bütün hallar üzrə icraatın dayandırılması zamanı riayət edilməli olan tələbləri başa düşür. Müəllif ibtidai istintaqın dayandırılmasının ümumi şərtlərinin dairəsi ilə bağlı hesab edir ki, AR CPM-in 53.5-ci maddəsində əks olunmuş "cinayət təqibi üzrə icraat dayandırılanadək cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxs olmadan həyata keçirilməsi mümkün olan bütün prosessual hərəkətləri yerinə yetirməlidir" və cinayət hadisəsinin mövcudluğu sübut edilməsi barədə tələbləri birmənalı şəkildə ibtidai istintaqın dayandırılmasının ümumi şərti kimi qəbul olunmalıdır. Lakin cinayət işi (cinayət təqibi) üzrə icraata xitam verilməsi üçün əsasların olmamasının müəyyənləşdirilməsi tələbini ibtidai istintaqın dayandırılması əsaslarının hər birində müəyyənləşdirmək mümkün olmadığına görə onun ümumi şərt kimi qəbul olunması ümumi şərtin dayandırmanın bütün əsasları üzrə həyata keçirilməsi kimi ən mühüm əlamətinə cavab vermədiyinə görə düzgün olmazdı.

Burada ibtidai istintaqın dayandırılması əsası ibtidai istintaqın dayandırlması barədə qərarın qəbul edilməsi ilə nəticələnən qanunda nəzərdə tutulmuş halların məcmusu kimi qəbul olunur.

İbtidai istintaqın dayandırılmasının əsasları sistemi ilə bağlı müəllifin mövqeyi onların numirus clarus qaydasında müəyyən edilməsinin zəruriliyidir. İbtidai istintaqın dayandırılması əsaslarının sayı barədə prof. M.Ə.Cəfərquliyevin fikrini dəstəkləyərək onları sayının aldı olduğunu bildirir. Prosessual hüquq ədəbiyyatında belə fikir istiqaməti vardır ki, təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin müəyyən olunmaması əsası ilə ibtidai istintaqın dayandırılması iş üzrə cinayət mühakimə icraatının vəzifələrinin öhdəsindən gəlməməyə əsas verir. Elə

buna görə də, onu cinayət-prosessual qanunvericilikdən çıxarmaq lazımdır. Hesab edilir ki, belə bir əsaslandırma doğru deyildir, bu müddəaların hər biri dayandırma zamanı həyata keçirilə bilər.

AR CPM-in 53.1.1-ci maddəsindən fərqli olaraq 53.1.2-ci maddədə gələcəkdə nə vaxt isə iş üzrə barəsində təqsirləndirilən şəxs qismində qərar çıxarılacaq və müvafiq olaraq cəlb olunacaq şəxsdən deyil, artıq, təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərarı çıxarılmış konkret fiziki şəxsdən gedir. Ona görə də hesab edilir ki, bu maddədə mübahisəsiz olaraq təqsirləndirilən şəxsin olduğu yerin məlum olmamasından danışmaq zəruridir. Həmçinin qeyd olunur ki, cinayət mühakimə icraatında təqsirləndirilən şəxsin olduğu və ya yaşayış yerindən (Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında AR Qanununun 2-ci maddəsində və AR CPM-in 7.0.34-cü maddəsində göstərilən məzmun nəzərdə tutulur.) asılı olmayaraq onun faktiki olduğu yerinin müəyyən olub-olmaması ibtidai istintaqın dayandırılması üçün əhəmiyyət daşıyır.

İbtidai istintaqın dayandırılmasının digər bir əsası olan təqsirləndirilən şəxsin istintaq və məhkəmədən qaçıb gizlənməsini təqsirləndirilən şəxsin olduğu yerinin faktiki məlum olmamasının xüsusi bir növü kimi nəzərdən keçirən müəllif hesab edir ki, bu əsasın qanunvericilikdəki məzmunu dəqiqləşdirilərək "*təqsirləndirilən şəxs ibtidai* araşdırmadan və ya məhkəmədən gizləndikdə" kimi ifadə olunmaldır.

Təcrübədə təqsirləndirilən şəxsin cinayət prosesində iştirakı müvəqqəti mümkün olmamasının müxtəlif obyektiv səbəbləri ola bilər. Ölkənin müəyyən bölgəsində təbii fəlakətlə bağlı olaraq təqsirləndirilən şəxsin cinayət prosesində iştirakı müvəqqəti olaraq mümkün olmaması onun iradəsi ilə bağlı olmadığı üçün bu halda icraat dayandırılmalıdır. Lakin bu hal qanunvericilikdə dayandırmanın qəti müəyyən olunmuş halları sıyahısına daxil olmadığı üçün icraat dayandırıla bilməz. Hesab edirik ki, AR CPM-in 53.1.4-cü maddəsindəki təqsirləndirilən şəxsin cinayət prosesində iştirakı müvəqqəti mümkün olmamasının obyektiv səbəblərinin dairəsi açıq saxlanmalıdır ki, təcrübədə olan hər hansı bir obyektiv səbəb müəyyən edildikdə ibtidai istintaqı dayandırmaq mümkün olsun. Qeyd olunan mövqeyinin qanunvericiliyə aşağıdakı məzmunda daxil olunmasını təklif edir:

"53.1.4. təqsirləndirilən şəxsin müvəqqəti ağır xəstəliyi *və*/və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda olması *və/və ya digər obyektiv səbəblərlə* əlaqədar cinayət prosesində iştirak etmək *imkanı real olaraq* müvəqqəti mümkün olmadıqda;"

Məlumdur ki, AR Seçki Məcəlləsinin 70.4-cü maddəsinə əsasən, seçkidə iştirakla bağlı qeydə alınmış namızədlərin də, müvafiq seçki komissiyasında namizədin qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək toxunulmazlıq hüququndan istifadə edirlər. Hesab edirik ki, bu qrup şəxslərin toxunulmazlıq hüququnun ləğvi prosedura sadə olduğu üçün onunla bağlı ibtidai istintaqın dayandırılmasına heç bir zərurət yoxdur.

**“Məhkəməyədək icraatda cinayət işlərinin dayandırılmasının prosessual qaydası”** adlanan ikinci paraqrafda cinayət təqibi üzrə icraatın dayandırılması üçün müvafiq əsaslar olduğu halda ibtidai istintaqın dayandırılması barədə müvafiq qərarın qəbulunun prosessual qaydası və forması, müvafiq şəxslərin bu barədə məlumatlandırılması kimi digər prosessual qaydalar təhlil olunur.

İbtidai istintaqın dayandırılması zamanı cinayətkarlıqla mübarizənin effektivliyinin aşağı düşməsi və insan hüquq və azadlıqlarının pozulması ehtimalı daha yüksək olur. Məhz buna görə AR Baş prokuroru 09.03.2001-ci il tarixli №02/47 saylı “Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin, ibtidai istintaq və təhqiqat üzərində nəzarətinin daha da gücləndirilməsi haqqında” Əmri qəbul olunmuş və həmin Əmrin 2.9-cu maddəsi ilə Baş prokurorluğun istintaqa, təhqiqata və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarəti həyata keçirən idarə rəisləri, AR Hərbi, NMR və Bakı şəhər prokurorları cinayət işlərinin əsassız ... dayandırılmasının vaxtında aşkara çıxarılmasını, belə hallara yol verən işçilərin haqqında intizam məsuliyyətinə cəlb edilməsi üçün məsələ qaldırılmasını təmin etməlidirlər. Dayandırılmış işlər üzrə icraata prokuror nəzarətinin səmərəli təşkili məqsədilə müvafiq Əmrin 3.13 və 3.15-ci maddələrində ibtidai istintaqa prosessual rəhbərliyi həyata keçirən ərazi və ixtisaslaşmış prokurorlar üçün xüsusilə ağır işlər üzrə cinayət törətmiş şəxslərin müəyyən edilməməsinə görə icraatı dayandırılan cinayət işləri üzrə qəbul edilmiş qərarların qanuniliyinin yoxlanılması üçün işin öz rəyi ilə dərhal Baş prokurorluğun müvafiq idarələrinə göndərilməsi, həmçinin icraatı dayandırılmış işlər üzrə cinayət törətmiş şəxslərin müəyyən edilməsi və axtarılması tədbirləri barədə qanunların icra vəziyyətinin ayda bir dəfədən az olmayaraq yoxlanılması, təqsirləndirilən şəxsin istintaqdan və məhkəmədən yayınmasına səbəb olan halların təhlil edilməsi və onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi vəzifəsi qoyulmuşdur.

Müəllif AR CPM-in 277.1-ci maddəsi elə formulə olunmasını təklif edir ki, CPM-in 53.1-ci maddəsində ibtidai istintaqa aid olmayan dayandırma əsasları orada ifadə olunmasın. Bu məqsədlə təklif edir ki,

həmin maddə "277.1 Cinayət işi üzrə icraat bu Məcəllənin 53.1-ci maddəsində ibtidai istintaqa aid ola bilən əsaslarla müstəntiqin əsaslandırılmış qərarı ilə dayandırılır" kimi ifadə olunsun.

Prosessual hüquq ədəbiyyatında ibtidai istintaqı dayandırmaq səlahiyyətinə malik olduğu subyektlərin dairəsinə müstəntiq, istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəis olmadıqda müavini) və ya prokuror qərar qəbul edə bilər. Təhqiqatçının belə bir səlahiyyəti yoxdur. Həmçinin hesab edilir ki, CPM-in 53.1-ci maddəsində göstərilən hallardan bir neçəsinə istinad edilməklə, yəni müstəntiqin cinayət işi üzrə icraatın dayandırılması 531.1.1-53.1.4-cü maddələrdəki əsaslar üzrə bir yerdə göstərilməklə icraat dayandırıla bilməz. Bu, həmin əsasların mahiyyətindən irəli gəlir.

AR CPM-in 277.5 və 277.6-cı maddələrində dayandırılmış icraat üzrə prosessual fəaliyyətin xüsusiyyətlərini əks etdirdiyi üçün onları "Cinayət işi üzrə icraatın dayandırılması qaydası" adlanan maddədə tənzimlənməsi doğru deyildir. Yaxşı olardı ki, dayandırılmış icraat üzrə prosessual fəaliyyət ayrıca maddədə əks olunsun.

AR CPM-in 277.6-cı maddəsinə görə icraatı dayandırılmış cinayət işi üzrə istintaq hərəkətlərinin aparılmasına yol verilmir. AR CPM-in 143.1-ci maddəsindən də bəlli olduğu kimi, sübutların toplanması ibtidai araşdırma ... zamanı dindirmə, üzləşdirmə, götürmə, axtarış, baxış, ekspertiza, tanınmaya təqdim etmə (*yəni istintaq hərəkətləri - m*) və digər prosessual hərəkətlərlə həyata keçirilir. Başqa sözlə, istintaq hərəkətləri prosessual hərəkətlərin bir hissəsi olsa da, digər prosessual hərəkətlərdən fərqlənir. Dayandırılmış icraat üzrə istintaq hərəkətlərinin həyata keçirilməsi qadağan olunsa da, CPM 279.1.2-ci maddəsi təqsirləndirilən şəxsin iştirakı olmadan aparılması mümkün olan istintaq hərəkətlərinin deyil, bütün prosessual hərəkətlərin yerinə yetirilməsi zərurəti olduqda icraatın təzələnməsini tələb edir. Halbuki buna heç bir ehtiyac yoxdur. Çünki 277.6-cı maddə təkcə istintaq hərəkətlərini qadağan edir. Yuxarıdakılardan belə qənaətə gəlmək olar ki, 279.1.2-ci maddəsi aşağıdakı kimi formulə edilməlidir:

"279.1.2. təqsirləndirilən şəxsin iştirakı olmadan aparılması mümkün olan *istintaq hərəkətinin* yerinə yetirilməsi zərurəti olduqda."

**"Məhkəməyədək icraatda dayandırılmış cinayət işlərinin təzələnməsi əsasları"** adlanan üçüncü paraqrafda ayrı-ayrı nəzəri və təcrübi məsələlər araşdırılır.

Məlumdur ki, işin icraatı təzələndikdən sonra cinayət-prosessual fəaliyyət özünün aktiv mərhələsinə keçir. Cinayət işi üzrə ibtidai istintaqın təzələnməsinin mübahisəli məsələlərindən biri olan dayandırılmış cinayət

işi üzrə istintaq hərəkətlərinin həyata keçirilməsinin düzgün olub-olmaması ilə bağlı müəllif belə bir mövqeyi müdafiə edir ki, əgər dayandırılmış icraat üzrə istintaq hərəkətlərinin həyata keçirilməsinə icazə verilsə, bu, dayandırma və təzələmə institutunun lazımsız, formal bir institut olmasına gətirib çıxaracaqdır.

AR CPM-in 279.1.1-ci maddəsinin qrammatik təfsiri təcrübədə mənfi nəticələrə gətirib çıxara biləcəyini nəzərə alaraq təklif edir ki, “279.1.1. CPM-in 53.1-ci maddəsində nəzərdə tutulan cinayət işi üzrə icraatın dayandırılması üçün *əsas olan hal* aradan qalxdıqda;” məzmununda ifadə olunsun.

Dayandırmanın AR CPM-inin 53.1.1-ci maddəsindəki müvafiq əsasın aradan qalxması üçün 223.1-ci maddədə göstərilən ilkin sübutları kifayət qədər məcmusunu təmin etməlidir. Müvafiq sübutları əldə etmək üçün müstəntiq dayandırılmış işi CPM-in 279.1.2-ci maddəsi əsasında, yəni təqsirləndirilən şəxsin iştirakı olmadan aparılması mümkün olan prosessual hərəkətlərin yerinə yetirilməsi zərurəti ilə işi təzələməlidir. İbtidai istintaqı təzələnməsi barədə qərar qəbul edib təqsirləndirilən şəxs qismində cəlb etmə qərarını qəbul edilməsi üçün istintaq hərəkətləri vasitəsilə kifayət qədər sübut toplayan müstəntiqə bu əsasla ibtidai istintaqı təzələməyə zərurət qalmır. Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, *53.1.1-ci maddənin aradan qalxması ilə dayandırılmış cinayət işinin təzələnməsi təcrübi olaraq mümkün deyildir.*

Ibtidai istintaqın təqsirləndirilən şəxsin olduğu yerin məlum olması ilə əlaqədar olaraq onun təzələnməsi zamanı icraatın təzələnməsi barəsində qərarın qəbul edilməsi anı təqsirləndirilən şəxsin ibtidai istintaqın aparıldığı yerə gətirildiyi vaxtdan hesab olunur.

İbtidai istintaqın təzələnməsi üçün mütləq şəkildə dayandırmanın müvafiq əsaslarının aradan qalxması vacib deyildir və onun digər əsası olan istintaq hərəkətlərinin həyata keçirilməsi dayandırmanın əsaslarının aradan qaldırılmasına kömək edə bilər.

Müəllif bildirir ki, təqsirləndirilən şəxsin **digər obyektiv səbəblərlə** (bu müəllifin irəli sürdüyü təkliflə bağlıdır) əlaqədar cinayət prosesində iştirak etmək **imkanın real olaraq** müvəqqəti mümkün olmaması əsasının aradan qalxması, təqsirləndirilən şəxsin cinayət prosesində iştirak etmək üçün müstəntiqin yanına gəlməsi və ya cinayət prosesində iştirak etmək üçün real imkan yarandığı andan hesablana bilər.

Müəllif belə bir fikirlə razılaşır ki, dayandırılmış cinayət işi üzrə istintaq hərəkətlərinin aparılması qadağan olunsa da, bu zaman digər

prosessual hərəkətlərin həyata keçirilməsi imkanı qaldığı üçün onları ibtidai istintaqı təzələmədən həyata keçirmək olar.

**“Məhkəməyədək icraatda dayandırılmış cinayət işlərinin təzələnməsinin prosessual qaydası”** adlanan dördüncü paraqrafda ibtidai istintaqın təzələnmək səlahiyyətlərinə malik olan subyektlərin dairəsi və onun prosessual forması ilə bağlı mövcud nəzəri və təcrübi məsələlər nəzərdən keçirilmişdir.

Ümumi qaydaya görə ibtidai istintaqın təzələnməsinin hüquqi əsası müstəntiqin qərarıdır. Müstəntiq CPM-in 279.1-ci maddəsində göstərilən əsasların mövcudluğunu müəyyən etdikdə cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi haqqında qərar qəbul edir. Bu qərarın qəbulu CPM-də ifadə olunsa da, onun prosessual forması barədə məcburi hüquqi qüvvəyə malik olan heç bir göstəriş yoxdur. Cinayət məsuliyyətinə cəlb etmə müddəti və ya ibtidai araşdırmanın müddətlərinin axımı ilə bağlı məsələnin həlli zamanı bu qərarın prosessual formasının müəyyən edilməsinin roluna nəzər yetiriləndə açıq-aydın şəkildə təzələnmə qərarının bilavasitə həmin müddətin hesablanması üçün əhəmiyyətini müşahidə etmək olur. Hesab edirik ki, ibtidai istintaqın təzələnməsi qərarının həm cinayət-hüquqi və cinayət-prosessual hüquq baxımından, həm də AR CPM-in 279.4-cü maddədəsində göstərilən təqsirləndirilən şəxs, zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdehin hüquq və mənafelərinin təmini baxımdan xüsusi əhəmiyyətini nəzərə alaraq onun prosessual forması AR CPM-in 277.2-ci maddəsində cinayət işi üzrə icraatın dayandırılması barədə qərarda olduğu kimi tənzimlənməsi daha məqsədəuyğundur.

İcraatın təzələnməsi haqqında qərarı qəbul etmək səlahiyyəti olan şəxsin təcrübədə mövcud olan bu prosessual formaya əməl etmədiyi halda, bunun ibtidai istintaq və müvafiq qərarın qanuni mənafelərinə toxunduğu şəxslər üçün hansı mənfi nəticələrə gətirib çıxararacağını ehtimal etmək çətin deyil. Qanunda bu qərarın prosessual formaya əməl olunmamasının hansı hüquqi nəticələri doğuracağı bəlli olmadığı kimi, hətta belə bir qərarın özü müvafiq bir prosessual formada mövcud deyildir.

İcraatın təzələnməsi qərarı haqqında hüquq və qanuni mənafelərinə toxunduğu müvafiq şəxslərə bu barədə məlumat verilməsi məsələsidir. Bu məlumatın müstəntiq tərəfindən göstərilən şəxslərə verilməsinin prosessual forması qanunda nəzərdə tutulmamışdır. Müəllif bu barədə o fikirlə razılaşır ki, CPM-in 277.4-cü maddəsində göstərilən qayda olduğu kimi təzələnmə qərarına da şamil olunmalıdır.

AR CPM-in 279.3-cü maddəsinə əsasən, cinayət işi üzrə icraatın təzələnməsi müstəntiqin qərarı ilə yanaşı, ibtidai araşdırmaya prosessual

rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmə nəzarətini həyata keçirən məhkəmənin müstəntiqin iş üzrə icraatın dayandırılması haqqında qərarını ləğv edilməsi barədə qərarı ilə də təzələnə bilər. Başqa sözlə, prosessual ədəbiyyatda da söylənildiyi kimi, icraatın təzələnməsi barədə qərar qəbul etmək səlahiyyəti olan digər iki subyekt, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və məhkəmə nəzarətini həyata keçirən məhkəmədir. Lakin bu halın icraatın təzələnməsi kimi qəbul olunub-olunmaması ilə bağlı fərqli fikirlər mövcuddur. Müəllif belə bir mövqeni müdafiə edir ki, əsassız və qanunsuz olaraq dayandırılmış icraatın təzələnməsi barədə qərar qəbul olunması qanunsuz hesab olunan dayandırılmanın qanuniliyinin təsdiqlənməsidir. Çünki yalnız dayandırılmış icraat təzələnə bilər. Bu halda isə, icraatın dayandırılması qanunsuz olduğu üçün onun mövcudluğunu hər hansı bir formada qəbul olunması düzgün deyildir.

**“Məhkəmədə cinayət işlərinin dayandırılması və təzələnməsinin prosessual problemləri və onların həlli yolları”** adlanan üçüncü fəsil iki paraqrafdan ibarətdir.

**“Məhkəmədə cinayət işlərinin dayandırılması əsasları, prosessual qaydası və şərtləri”** adlanan birinci paraqrafda ədalət mühakiməsini həyata keçirən yeganə dövlət orqanı kimi məhkəməyə hazırlıq və baxış hissədə cinayət işləri üzrə icraatı dayandırması əsasları, şərtləri və prosessual qaydası məsələləri nəzərdən keçirilir.

Məhkəmənin hazırlıq iclasında icraatın dayandırılması əsaslarının sistemi barədə müəllif qüvvədə olan AR CPM-in yanaşmasını məntiqli və əsaslı hesab edərək bildirir ki, CPM-in 53.1.1-ci maddədəki, təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda olması ilə əlaqədar cinayət prosesində iştirakı müvəqqəti mümkün olmaması və şəxsin xarici dövlət tərəfindən verilməsi məsələsinin qanunla müəyyən olunmuş qaydada qoyulması əsası ilə icraatı dayandırmaq mümkün deyildir. Lakin 53.1.7-ci maddədəki hal bu mərhələdə mövcud ola bilər.

Cinayət işi məhkəmə araşdırmasına qədər təqsirləndirilən şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi məsələləri ibtidai araşdırma mərhələsində həll olunmuş olur. Bəzi hallarda şəxs toxunulmazlıq hüququ məhkəmə mərhələsində əldə edə bilər. Misal üçün şəxs məhkəmə baxışı mərhələsində AR Prezidentliyinə və ya Milli Məclisin deputatlığına namizədi kimi status əldə edə bilər ki, bu zaman onun barəsində toxunulmazlıq hüququ ləğv olunmadan icraat aparıla bilməz. Məhkəmə dövlət orqanı kimi yalnız qanunla müəyyənləşdirilmiş hüdudlarda və

qanunda nəzərdə tutulmuş qaydada fəaliyyət göstərdiyi üçün bu halda onun şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi ilə bağlı məsələlərin məhkəmə tərəfindən həll olunması və hətta, bu halda icraatın dayandırılması da düzgün hesab oluna bilməz. Çünki toxunulmazlıq hüququna malik olan şəxslərin bu hüquqdan məhrum olunması məsələsinin hansı qaydalar çərçivəsində həyata keçirildiyi qanunvericilikdə təsbit olunmuşdur. Məhkəmə iş üzrə qərəzsiz olmalı və nə müdafiə, nə də ittiham tərəfinin mövqeyi yönündə fəaliyyət göstərməməli, müşavirə otağına gedənədək işin mahiyyəti üzrə rəyini ifadə etməməlidir. Toxunulmazlıq hüququndan məhrumetmə isə təqib üçün kifayət qədər əsasların olması halında mümkün olur və bunun məhkəmə tərəfindən irəli sürülməsi onun işin nəticəsini araşdırma aparmadan ifadə etməsi olardı. Bu halda məhkəmə öz təşəbbüsü ilə deyil, yalnız ittiham tərəfinin vəsatəti əsasında icraatı dayandıra bilər. Əks halda o cinayət işini dayandırmadan materialların ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora geri qaytarmalıdır.

CPM-in 304.1.3-cü maddəsindəki sorğu cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı tətbiq edilmiş normativ hüquqi aktın yalnız Konstitusiyaya uyğunluğu barəsində olduğu üçün və məhkəmə belə sorğunu verə bilmədiyi üçün hesab edilir ki, bu hissə CPM-in 53.1.6-cı maddəsində olduğu kimi "insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı məhkəmə tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edildikdə" ifadə olunmalıdır.

Məhkəmənin hazırlıq iclasında icraatın dayandırılması ilə bağlı AR CPM-də digər bir çatışmazlıq 304.1.1-ci maddənin "təqsirləndirilən şəxsin gizlənməsi" hissəsində CPM-in 311.2-ci maddəsinin nəzərə alınmamasıdır. Təqsirləndirilən şəxsin iştirakı olmadan - təqsirləndirilən şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarda olub məhkəməyə gəlməkdən qəsdən boyun qaçırdıqda, yəni 304.1.1-ci maddədəki icraatın dayandırılması əsası mövcud olduqda məhkəmə işin qiyabi icraatda baxılması barədə qərar qəbul edə bilərmi?

Məhkəmə baxışının ümumi şərtləri sistemində icraatın dayandırılması əsasları sayına CPM-in 53.1.6-cı maddəsində ifadə olunan əsasın əlavə edilməsi zəruridir. Həmçinin təqsirləndirilən şəxsin ağır xəstəliyi ilə bağlı onun cinayət prosesində iştirak etməsinin qeyri-mümkünlüyü əsasının cinayət-prosessual qanunvericilikdə fərqli

məzmunda, bəzən "təqsirləndirilən şəxsin ağır xəstəliyi ilə əlaqədar cinayət prosesində iştirakı müvəqqəti mümkün olmadıqda (53.1.4 mad.)", bəzən təqsirləndirilən şəxs onun məhkəmə baxışında iştirakını istisna edən ağır xəstəliyə tutulduqda (304.1.2 mad.), bəzən isə "xroniki, yaxud digər ağır xəstəliyə tutulduğuna görə onun məhkəmə iclasına gəlməsi qeyri-mümkün olduqda (319.2 mad.)" kimi ifadə olunması qanunun tətbiqi üçün onun vahid anlayışlar sistemindən istifadə etməsi tələbi baxımından bu ifadələrin hər yerdə eyni məzmunda işlədilməlidir.

AR CPM-in 319.3-cü maddəsinin təhlili onu deməyə əsas verir ki, qanunverici faktiki olaraq 319.2-ci maddədə icraatın dayandırılmasının əsası kimi nəzərdə tutmadığı 53.1.2-ci maddədə göstərilən "təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin olduğu yer müəyyən olunmaması" əsası ifadə olunmuşdur. CPM-in 319.3-cü maddəsinə görə məhkəmə bu Məcəllənin 53.1.3 və *53.3.2-ci maddələrində* (kursiv bizimdir) nəzərdə tutulmuş hallarda və qaydada məhkəmədən gizlənən təqsirləndirilən şəxsin axtarışını elan etmək və bu məsələ üzrə qəbul etdiyi qərarı onun icrasına nəzarətin həyata keçirilməsi üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərməlidir. Bu əsas da, 319.2-ci maddəyə əlavə edilməlidir.

CPM-in 319.2-ci maddəsində məhkəmə baxışında təqsirləndirilən şəxs barəsində məhkəmə baxışında icraat dayandırıldıqda digər təqsirləndirilən şəxslər barəsində isə məhkəmə baxışını mümkün olduqda davam etdirir. Məhkəmə baxışının ayrı-ayrılıqda aparılması cinayət təqibi ilə bağlı olan bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə mane olduqda, məhkəmə cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə bütün icraatı hazırlıq iclasındakı dayandırma qaydaları nəzərə alınmaqla dayandırılır. Lakin bu müddət otuz gündən çox davam edə bilməz. Qanunun bu halda dayandırma qərarı üçün maksimal müddət müəyyən etməsi insan hüquq və azadlıqlarının təminatı baxımdan doğru olsa da, bu norma dayandırmanın mahiyyətinə uyğun deyildir. Həmçinin, 30 gün ərzində icraatın ayrı-ayrılıqda aparılması cinayət təqibi ilə bağlı olan bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə mane olan faktorların hər bir halda aradan qalxacağını da əvvəlcədən iddia etmək mümkün deyil. Ona görə də, belə bir nəticəyə gəlinir ki, bu qayda icraatın dayandırılması deyil, daha çox onun təxirə salınması kimi qiymətləndirilməsi məntiqli olardı.

**"Məhkəmədə dayandırılmış cinayət işlərinin təzələnməsi əsasları, prosessual qaydası və şərtləri"** adlanan ikinci paraqraf məhkəmənin

hazırlıq və məhkəmə baxışı mərhələlərində dayandırılmış cinayət işləri üzrə icraatın təzələnməsi əsasları və prosessual qaydasını həsr olunmuşdur.

Bu paraqrafda qeyd olunur ki, məhkəmə mərhələsində icraatın dayandırılması bunun üçün əsas olan hallar aradan qalxanadək qüvvədə olur. Müəllif hesab edir ki, icraatın dayandırılması və təzələnməsi sıx qarşılıqlı əlaqədə olan bir hüquq institutu olduğu üçün o, qanunvericiliklə ətraflı şəkildə tənzimlənməlidir. CPM-də məhkəmədə icraatın dayandırılması məsələsi barədə qərarın qəbulu tənzimlənmiş olsa da, icraatın təzələnməsi barədə məsələ nə 304, nə də 319.2-ci maddədə tənzimlənmir. Məhz ona görə də, bir çox hallarda məhkəmələr icraatın təzələnməsi barədə ayrıca bir qərar çıxarmadan növbəti iclasın vaxtı və yeri barədə iştirakçılara məlumat verməklə həmin iclas protokolunda dayandırmanın əsaslarının aradan qalxması barədə məlumat qeyd olunur. Belə bir prosessual qayda AR CPM-in 53.6-cı maddəyə uyğun deyil. İcraatın təzələnməsi ilə yanaşı, dayandırılmış icraat üzrə prosessual fəaliyyətin həyata keçirilməsi məsələləri də, qanunda ətraflı şəkildə göstərilməlidir. AR CPM-in 319.3-cü maddəsinə görə məhkəmə təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs istintaqdan və ya məhkəmədən gizləndikdə və olduğu yer müəyyən olunmadıqda onun barəsində axtarışı elan etmək və bu məsələ üzrə qəbul etdiyi qərarı *onun icrasına nəzarətin* həyata keçirilməsi üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərməlidir. Deməli, məhkəmə bu qərarı icra etmək üçün fəaliyyətinə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun nəzarət etmək səlahiyyəti olan orqana da göndərir ki, belə orqanlar da, ibtidai araşdırma orqanlarıdır. Yalnız dolayı yolla belə bir nəticəyə gəlmək olar ki, dayandırılmış icraat üzrə prosessual fəaliyyətin bir qismi məhkəmə tərəfindən ibtidai araşdırma orqanlarına həvalə olunur. Bu birbaşa şəkildə CPM-də qeyd olunmalıdır.

AR CPM-in 53.5-ci maddəsindən məlumdur ki, cinayət təqibi üzrə icraat dayandırılanadək cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxs olmadan həyata keçirilməsi mümkün olan bütün prosessual hərəkətləri yerinə yetirməlidir. İş üzrə həm hazırlıq iclasında, həm də məhkəmə baxışında icraatın dayandırılması zamanı bu tələb məhkəmə tərəfindən də yerinə yetirilməlidir. Yəni cinayət işini dayandırmamışdan əvvəl o, təqsirləndirilən şəxs olmadan həyata keçirilməsi mümkün olan bütün prosessual hərəkətləri yerinə yetirməlidir. Aydındır ki, bu, məhkəmə baxışında yerinə yetirilməsi mümkün olsa da, məhkəmənin hazırlıq iclasında mümkün deyildir. Əgər cinayət təqibi üzrə icraat dayandırılanadək cinayət prosesini həyata keçirən orqan kimi

məhkəmənin təqsirləndirilən şəxs olmadan həyata keçirilməsi mümkün olan bütün prosessual hərəkətləri yerinə yetirmək vəzifəsi varsa, o, bu vəzifəni həyata keçirmək üçün hazırlıq iclasında icraatı dayandırmamalıdır. Əgər dayandırmış olsa, CPM-in 53.5-ci maddənin tələbini pozmuş olacaqdır. Amma bu halı məhkəmə baxışına tam şəkildə aid etmək olar.

Beləliklə də, qüvvədə olan qanuna görə məhkəmədə dayandırılmış icraatın təzələnməsinin birinci əsası, dayandırmaya əsas olan halın aradan qalxmasıdır.

İkinci əsas kimi, "təqsirləndirilən şəxsin iştirakı olmadan aparılması mümkün olan prosessual hərəkətlərin yerinə yetirilməsi zərurəti olması" da, müvafiq şərtlər çərçivəsində nəzərdən keçirilməli və qanunvericiliyə daxil olunmalıdır.

Üçüncü əsas müvafiq dayandırma qərarının qanunsuz və əsasızlığı ilə bağlı onun ləğv edilməsidir. Belə bir əsas barədə yalnız I instansiya məhkəməsinin dayandırma barədə qərarından verilən protest və şikayətə baxılması nəticəsində onun ləğv edilməsidir. Dayandırma haqqında qərardan apellyasiya şikayəti verildiyi halda bunun üçün əsaslar varsa, o, dayandırma haqqında qərarı ləğv edir və icraatın təzələnməsi haqqında qərar qəbul edir.

Dayandırılmış icraatın təzələnməsi barədə qərar hökmən yazılı formada olmalı və maraqlı şəxslərə (zərər çəkmiş şəxsə, onun nümayəndəsinə, mülki iddiaçıya, mülki cavabdehə və ya onların nümayəndələrinə) göndərilməlidir.

AR CPM-in 319-cü maddəsi dayandırma ilə bağlı hissələrdə aşağıdakı kimi dəyişdirilməsi təklif olunur:

"319.2. Təqsirləndirilən şəxs məhkəmədən gizləndikdə, olduğu yer müəyyən olunmadıqda, ağır xəstəliyə tutulduğuna görə məhkəmə iclasına gəlməsi qeyri-mümkün olduqda, insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı məhkəmə tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edildikdə, məhkəmə qərarlarının icra edilməməsi ilə əlaqədar cinayət təqibi zamanı mülki-prosessual qanunvericiliyə uyğun olaraq qərarın icrası kassasiya instansiyası məhkəməsi tərəfindən dayandırıldıqda məhkəmə cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatı dayandırır. Digər təqsirləndirilən şəxslər barəsində isə məhkəmə baxışını mümkün olduqda davam etdirir.

319.3. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində təqib olunan şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi məsələsi

qanunla müəyyən olunmuş qaydada həll olunması zərurəti yarandıqda ittiham tərəfinin vəsatəti əsasında məhkəmə icraatı dayandıra bilər.

319.4. Məhkəmə məhkəmədən gizlənən təqsirləndirilən şəxsin axtarışını elan etmək və bu məsələ üzrə qəbul etdiyi qərarı icrası üçün onu iş üzrə ibtidai araşdırma orqanına və bu qərarın icrasına nəzarətin həyata keçirilməsi üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərməlidir.

319.5. İcraatı dayandırılmış cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmə hərəkətlərinin həyata keçirilməsinə yol verilmir.

319.6. İcraatın dayandırılmasına əsas verən hallar aradan qalxdıqda və ya təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə baxışında məhkəmə hərəkətlərinin həyata keçirilməsi zərurəti yarandıqda məhkəmə öz təşəbbüsü ilə və ya tərəflərin vəsatəti əsasında icraatın təzələnməsi barədə qərar qəbul edə bilər. İcraatın təzələnməsi barədə qərar sənəd şəklində tərtib olunur və bu barədə təqsirləndirilən şəxs, onun müdafiəçisi, zərər çəkmiş şəxs, onun nümayəndəsi, mülki iddiaçı, mülki cavabdeh və ya onların nümayəndələrinə məlumat verilir.

**Nəticədə** aparılmış təhlillər və araşdırmalar nəticəsində əldə edilmiş nəzəri və təcrübi əhəmiyyətli nəticələr, cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində verilmiş təkliflər, tövsiyyələr və irəli sürülmüş yeni nəzəri müddəalar ifadə edilmişdir.

**Əlavələrdə** tədqiqat zamanı aparılan təhlillərin əsaslandırılmasında istifadə olunan statistik məlumatlar və rəy sorğularının nəticələri öz əksini tapır.

**Tədqiqat işi ilə əlaqədar müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. İbtidai istintaq üzrə icraatın dayandırılması və təzələnməsi ilə bağlı müddəaların təkmilləşdirilməsinin bəzi məsələləri // AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu tərəfindən təşkil olunmuş Ulu Öndər Heydər Əliyevin ad gününə və Azərbaycan Respublikasının dövlətçiliyinin bərpasının 20 illiyinə həsr olunmuş "Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları" adlı Beynəlxalq konfransın materialları. II hissə, Bakı, 2011, s.156-159.

2. Azərbaycan Respublikasının Cinayət-prosessual məcəlləsinin 53.1.1-ci maddəsinin təkmilləşdirilməsi barədə // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası. №2, 2012, s. 82-91

3. Azərbaycan cinayət prosesində ibtidai istintaqın dayandırılması və təzələnməsi: tarixi aspektləri // Məhkəmə ekspertizası, kriminalistika və

kriminalistika və kriminologiyanın aktual məsələləri, Bakı, 2012, № 56, s. 118-121.

4. 1923-cü il Azərbaycan Cinayət-prosessual məcəlləsində ibtidai istintaqın dayandırılması və təzələnməsinin xarakteristikası // Nəqliyyat hüququ, №3, 2012, s. 248-253.

5. İbtidai istintaqın dayandırılmasının prosessual qaydası // Dirçəliş – XXI, № 171-172, 2012, s.265-274.

6. İbtidai istintaqın təzələnməsinin aktual məsələləri // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri. Humanitar elmlər seriyası, №34, 2012, s. 118-123.

7. İbtidai istintaqın təzələnməsi əsaslarının təkmilləşdirilməsi haqqında // Məhkəmə ekspertizası, kriminalistika və kriminalistika və kriminologiyanın aktual məsələləri, Bakı, 2013, № 58, s. 180-184.

8. Сущность института приостановления предваритель- ного следствия по УПК Азербайджанской Республики // Наша Право (Our Law) № 2, 2014, s.93-95.

## РЕЗЮМЕ

Диссертационная работа на тему «Проблемы и пути их решения возобновления приостановленных уголовных дел на досудебной и судебной стадиях», представленная Казымовым Рашадом Сулейман оглы на соискание ученой степени доктора философии по праву по специальности 5612.01 – «Уголовный процесс, криминалистика и судебная экспертиза; оперативно-розыскная деятельность» является самостоятельной, творческой и завершенной научно-исследовательской работой, отражающей совершенно новые научные положения и имеющей очень важное значение с точки зрения изучения института приостановления и возобновления уголовных дел в уголовном процессе, а также для широкого анализа актуальных вопросов реализации задачи уголовного судопроизводство на стадиях предварительного расследования и судебном производстве. Основной целью диссертационного исследования является выявления проблемы уголовно-процессуального закона по приостановления и возобновления уголовных дел на предварительном и судебных стадиях и предложит пути их разращения, частичное совершенствование уголовно-процессуального законодательства и формулировка практически значимых рекомендаций для повышения эффективности правоохранительной и правоприменительной деятельности в процессе расследования и рассмотрения уголовных дел в суде.

Диссертационная работа состоит из введения, трех глав, заключения, списка использованной литературы и приложений.

Во введении обосновывается актуальность темы исследования, указывается степень разработанности, научная новизна темы исследования, приводятся новые положения, выносимые на защиту, цели и задачи, теоретическое и практическое значение исследования.

Первая глава диссертационного исследования называется «Понятие, сущность и история развития приостановления и возобновления производства по уголовному преследованию». В этой главе анализируются понятие, сущность и историческая развития института приостановления и возобновления производства по уголовному преследованию, дается новая авторская понятие приостановления и

возобновления уголовных дел и выявлена особенности исторический развитии этого института в Азербайджанской Республики.

Вторая глава диссертационного исследования называется «Процессуальные проблемы приостановления и возобновления уголовных дел на досудебном производстве и пути их решения». В этой главе анализируются такие важные вопросы, как особенности регулирования основы, условии и процессуальный порядок приостановления уголовных дел на досудебном производстве, основы и процессуальный порядок возобновления приостановленных уголовных дел.

Третья глава диссертационного исследования называется «Процессуальные проблемы приостановления и возобновления уголовных дел на судебном производстве и пути их решения». В этой главе подробно анализируется вопросы связанной основ, условий и процессуальный порядки приостановления в суде и возобновления приостановленных дел в судебном производстве по УПК АР.

В заключении обобщаются выводы, сделанные в диссертации, даются практические рекомендации, формулируются предложения, направленные на совершенствование законодательства.

## SUMMARY

Rashad Suleyman oglu Kazimov's dissertation work "Problems and their solutions resume suspended criminal cases at the pretrial and trial stages" for attaining the degree of Doctor of Philosophy in Law in the specialisation 5612.01 - "Criminal Procedure, criminalistics and judicial examination; operatively-search activity " is independent, creative and completed work. Containing brand new provisions, the dissertation work is of paramount importance for analysis of topical issues of realization of the task of the criminal proceedings at the stage of preliminary investigation and court proceedings. A main objective of dissertational research is identify problems of criminal procedural law on the suspension and resumption of criminal cases in the preliminary stages of litigation and suggest ways and their razrascheniya partial improvement of the criminal procedural law and the formulation of important practical recommendations to improve the effectiveness of law enforcement and law enforcement in the investigation and consideration of criminal cases in court

Dissertation work contains introduction, three chapters, conclusion and bibliography and applications.

Topicality is substantiated in the introduction, the theoretical and practical importance of research, aims and goals, development rate, new approaches to the topic and novelty of the research work have been considered in the introduction.

The first chapter is called "The concept, essence and history of the suspension and resumption of the criminal prosecution". The following issues have been analysed in the first chapter: concept, essence and historical development of the institution of suspension and resumption of the criminal prosecution, given the author's concept of a new suspension and resumption of criminal cases and identified the historical development of this institution in the Republic of Azerbaijan.

The second chapter is titled "Remedial problems suspension and resumption of criminal cases on the pre-trial proceedings and their solutions". The following issues have been analysed: especially regulatory framework and provided remedial order the suspension of criminal cases on pre-trial proceedings, the foundations of a remedial order and the resumption of suspended criminal cases.

The third chapter called "Remedial problems suspension and resumption of criminal cases to court proceedings and solutions. This chapter is dedicated to the following

issues: questions related foundations, conditions and procedure in court orders suspending and resuming the suspended cases in court proceedings under the Code of Criminal Procedure RA.

In the conclusion the conclusions made in the dissertation are generalised, practical recommendations are made, the offers directed on perfection of the legislation are formulated.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---

*На правах рукописи*

**Рашад Сулейман оглы Казымов**

# Проблемы и пути их решения возобновления приостановленных уголовных дел на досудебной и судебной стадиях

**5612.01 - "Уголовный процесс; криминалистика и судебная экспертиза; оперативно-розыскная деятельность"**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**Баку – 2014**